# Mirzə Ələkbər Sabirin xatirəsinin əbədiləşdirilməsi

M. Ə. Sabirin xatirəsinin əbədiləşdirilməsinə həmişə diqqət yetirilmişdir. Bakı şəhərində adına kitabxana təsis edilmiş (1919), Bakıda (1922) və Şamaxıda (1962) heykəli ucaldılmışdır. Azərbaycan rayonlarından biri, müxtəlif şəhərlərdəki küçələr, texnikum və məktəblər onun adını daşıyır. Anadan olmasının 100 illik yubileyi 1962-ci ildə böyük təntənə ilə qeyd olunmuşdur.

**Mirzə Ələkbər Sabirin Ev-Muzeyi**

Muzey 1962-ci ildə, şairin doğumunun 100 illiyi münasibətilə Şamaxıda yaradılmışdır. Muzey ikimərtəbəli binada yerləşir. Muzeyin ümumi sahəsi 293 m2-dir.

Muzeyin 6 sərgi salonu və 1 eyvanı vardır. Birinci sərgi salonunda M.Ə.Sabirin uşaqlıq, təhsil illərinə, səyahətlərinə aid eksponatlar və şairin sabun bişirdiyi qazanın maketi nümayiş olunur. Digər salonlarda XIX–XX əsrlərə aid məişət əşyaları, muzeyə verilən hədiyyələr, M.Ə. Sabirin müasirlərinin şəkilləri, tədqiqatçılarının əsərləri, “Molla Nəsrəddin” jurnalının nümunələri və s. eksponatlar sərgilənir. Muzey 2017-ci ilin sentyabr ayında divarının uçması nəticəsində bağlanıb və restavrasiyası məqsədilə sökülüb.







**Hazırda M.Ə. Sabirin Virtual Muzeyi də istifadəçilərə məsafədən onlayn xidmət gösərir**

**http://sabirmuseum.az/**